# MƏRKƏZİ ELMİ KİTABXANADA QORUNAN QƏHRƏMANLIQ SALNAMƏSİ

***Röksanə Mətləb qızı Səfərzadə***

*AMEA Mərkəzi Elmi Kitabxana,*
*Qarabağ müharibəsi qəhrəmanları fondunun müdiri*
*Yasamal rayonu, Hüseyn Cavid pros.129*
*roksanasafarzade@gmail.com*

***Açar sözlər:*** *kitabxanaların əhəmiyyəti, Ali Baş komandan, zəfər, qəhrəmanlar, Qarabağ müharibəsi qəhrəmanları fondu*

***Ключевые слова:*** *значимость библиотек, Верховный Главнокомандующий Вооруженными Силами, победа, герои, Фонд героев Карабахской войны*

***Keywords:*** *ımportance of libraries, Supreme Commander-in-Chief, victory, heroes, Karabakh war heroes fund*

**Xülasə:** Kitabxana insanların informasiya tələbatını ödəmək məqsədilə dünya biliklərinə açılan pəncərə, milli-mənəvi, mədəni dəyərlərin mühafizəsini təmin edən, onları nəsildən-nəslə ötürən bir elm xəzinəsidir. Kitab bilik mənbəyi olmaqla yanaşı, mədəniyyət, maarif daşıyıcısıdır.

Cəmiyyətdə elmi inkişafa təkan verilməsi, hər bir aktual sahədə düzgün maarifləndirmə sisteminin qurulması, ictimai maraqların milli maraqlar dairəsində inkişafı və ən əsası, gənc nəsildə vətənpərvərlik ruhunun yaranmasına zəmin yaradılması kimi mühüm sahələrdə elm-tədris ocaqları, xüsusən də, müasir kitabxana sistemi önəmli rola malikdir.

Bu baxımdan Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası etibarlı və mükəmməl informasiya mənbəyi olaraq tanınır. Vətən Müharibəsindən az sonra kitabxana sistemində ilk olaraq Mərkəzi Elmi Kitabxanada Qarabağ müharibəsi qəhrəmanları fondu yaradıldı.

Fond yarandığı gündən hər kəsin, xüsusən də gənc nəslin nümayəndələrinin marağına səbəb oldu.

Qarabağ fondunda Aprel və Tovuz döyüşləri, I və II Qarabağ müharibəsi, zəfərdə payı olan AMEA institutlarının müharibə iştirakçıları və şəhidləri, Qara Heybət helikopter qəzası, 12-14 sentyabr Azərbaycan - Ermənistan şərti sərhəddində baş vermiş hərbi münaqişə, 23 saatlıq Antiterror əməliyyatında şəhid olan qəhrəmanların döyüş fəaliyyətini əks etdirən məlumatlar sənədləşdirilmiş, video materiallar, foto şəkillər slaydlar toplanılmışdır.

**Резюме:** Библиотека — это окно в мир знаний, удовлетворяющее информационные потребности людей, которая обеспечивает сохранения национально-нравственных и культурных ценностей, и передает их из поколения в поколение. Книга-это не только источник знаний, но и проводник культуры, просвещения.

Научно-образовательные учреждения, в частности современная библиотечная система, должны содействовать научному развитию общества, создания правильной системы просвещения читателей во всех актуальных сферах, развитию общественных интересов в рамках национальных интересов и, что самое главное, создания почвы для формирования патриотического духа у молодого поколения.

В этом смысле Центральная Научная Библиотека Национальной Академии Наук Азербайджана является надежным и превосходным источником информации. Вскоре после Отечественной войны впервые в библиотечной системе при Центральной Научной Библиотеке был создан Фонд героев Карабахской войны.

С момента своего создания фонд привлек к себе внимание всех, особенно представителей молодого поколения.

Фонд героев Карабахской войны, созданный с целью ознакомить молодое поколение героизмом отважных сыновей, которые самоотверженно сражались и развевали трехцветный флаг в Карабахе, выбрав почетный путь победителя, ветерана или шехида, стал одним из ведущих уголков нашей библиотеки.

**Summary:** The library is a window to world knowledge in order to meet people's information needs, a scientific institution that ensures the preservation of national-spiritual, cultural values, and passes them on from generation to generation. In addition to being a source of knowledge, the book is also a carrier of culture and education.

In such important areas as stimulating scientific development in society, establishing a proper education system in each relevant field, developing public interests within the scope of national interests, and most importantly, creating a basis for the formation of a patriotic spirit in the young generation, scientific and educational institutions, especially the modern library system, should have an important role.

In this regard, the Central Scientific Library of the Azerbaijan National Academy of Sciences is known as a reliable and excellent source of information. Shortly after the Patriotic War, the Karabakh War Heroes Fund was first created in the library system at the Central Scientific Library.

Since its inception, the Fund has aroused the interest of everyone, especially representatives of the younger generation.

The Karabakh fund documents information reflecting the combat activities of the April and Tovuz battles,the First and Sekond Karabakh Wars, the war participants and martyrs of ANAS institutes that had a share in the victory, the Qara Heybat helicopter crash, the military conflict that occurred on the conditional border of Azerbaijan and Armenia on September 12-14 and the heroes who died in the 23-hour Anti-Terrorist Operation as well as video materials photographs and slides.

Xalqımızın Ümummilli lideri, dahi şəxsiyyət Heydər Əliyev deyirdi: "Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir"

Elm-təhsil sisteminin ayrılmaz atributu, insanların bələdçisi olan kitabxanaların əhəmiyyətini, onun zəngin mədəni irsimizin gələcək nəsillərə çatdırmaq istiqamətindəki rolunu yüksək qiymətləndirən Ulu öndər Heydər Əliyev bu sahəni daim diqqət mərkəzində saxlamış və ona xüsusi qayğı ilə yanaşmışdır [1].

Qədim tarixə malik Azərbaycan kitabxanaları uzun əsrlər boyu xalqımızın mənəvi sərvətlərinin keşiyində duran elm məbədi kimi bu gün də öz bəşəri vəzifələrini yerinə yetirməkdədir. Elmin inkişafı cəmiyyətin tərəqqisi dövlətin güclənməsi deməkdir. Ulu öndərin layiqli davamçısı, Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin 2007-ci il aprelin 20-də Azərbaycanda kitabxanaların yaxşılaşdırılması haqqında imzaladığı sərəncamda göstərilir ki, "Azərbaycan kitabxanaları Azərbaycan xalqının milli sərvətidir. Xalqımızın yaratdığı qiymətli tarixi-mədəni ədəbi-bədii və elmi-fəlsəfi irsin toplanıb saxlanılmasında, bəşər mədəniyyətinin qazandığı nailiyyətlərin nəsildən-nəslə çatdırılmasında və cəmiyyətimizin intellektual mənəvi potensialının artırılmasında kitabxanalarımız əvəzsiz rol oynayır" [2].

Mədəniyyət tarixi sahəsində qazanılmış təcrübə sübut edir ki, insanların mənəviyyatı, əxlaqi normaları və baxışları ilə bağlı olan milli-mənəvi dəyərlərin yaradıcısı xalqdır. Hər bir xalqın özünəməxsus milli - mənəvi dəyərlər sistemi vardır. Bu milli-mənəvi dəyərlər bizim tariximiz, dilimiz, dinimiz, adət-ənənələrimiz, mədəniyyətimiz, ədəbiyyat və incəsənətimizdir. Əminliklə deyə bilərik ki, kitabxanalarımız birbaşa milli -mənəvi dəyərlərimizin təbliği ilə məşğuldur. Ümumiyyətlə, kitabxanalarda Azərbaycan tarixinin şanlı səhifələrini xatırlatmaq, tariximizi bugünkü və gələcək nəsillərə geniş şəkildə çatdırmaq, millətimizin tarixini, milli-mənəvi dəyərlərini nümayiş etdirmək məqsədilə kitabxanalarda mütamadi olaraq tədbirlər, sərgilər, dəyirmi masalar təşkil olunur [3].

Kitabxana insanların informasiya tələbatını ödəmək məqsədilə dünya biliklərinə açılan pəncərə, milli-mənəvi, mədəni dəyərlərin mühafizəsini təmin edən, onları nəsildən-nəslə ötürən bir elm xəzinəsidir. Onlar müxtəlif sahələrə dair elmi-tarixi biliklərin mənbəyi olan yazılı xəzinələri mühafizə etməklə nəsillər arasında mədəniyyət, maarif daşıyıcısı rolunu oynayırlar. Cəmiyyətdə elmi inkişafa təkan verilməsi, hər bir aktual sahədə düzgün maarifləndirmə sisteminin qurulması, ictimai maraqların milli maraqlar dairəsində inkişafı və ən əsası, gənc nəsildə vətənpərvərlik ruhunun yaranmasına zəmin yaradılması kimi mühüm sahələrdə elm-tədris ocaqları, xüsusən də, müasir kitabxana sistemi önəmli rola malikdir.

Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası bu baxımdan hər zaman olduqca etibarlı və mükəmməl elm ocağı olaraq tanınmışdır. İlk yaradılma tarixi 1923-cü ilə təsadüf edən Mərkəzi Elmi Kitabxana 100 illik əsrin tarixi fəaliyyətini şərəflə davam etdirmişdir. Bu son əsr, xalqımızın yaşadığı olduqca mürəkkəb, ağır, ancaq hər zaman özünün milli mənliyini mühafizə etməyi bacarmiş bir zaman kəsiyi olaraq tarixdə qalacaqdır. Mərkəzi Elmi Kitabaxana yaddaşımızın yazılı xəzinəsinin qoruyucusu və ötürücüsü olaraq bir çox proseslərə şahid olmuşdur.

Xalqımızın yaddaşına həkk olunmuş, millətin taleyinin formalaşmasında müstəsna xidmətləri olan böyük tarixi şəxsiyyətlərin və qəhrəmanların xatirəsinin əbədiləşdirilməsinin gənc nəslin azərbaycançılıq məfkurəsinə sədaqət ruhunda tərbiyə olunması işində kitabxanaların rolu danılmazdır [4]. Tariximizin şanlı səhifəsi olan Vətən müharibəsi bütün sahələrdə olduğu kimi təhsil ocaqlarına, kitabxanalara başqa bir canlanma gətirdi. Hələ kitablarda yazılmamış, flimlərdə çəkilməmiş misilsiz qəhrəmnlıqların şahidi olduq.

Şanlı Ordumuzun ermənilərin hücumlarına cavab olaraq başladığı Vətən müharibəsi xalqımızın 30 illik həsrətinə 44 gündə son qoydu. Vətənpərvər oğullarımızın erməni təcavüzünü qəhrəmancasına dəf etməsi və əks-hücuma keçərək düşmənə sarsıdıcı zərbələr endirməsi xalqımızın qələbə əzminin nümayişi oldu. Bu günlər ərzində ordumuzun işğalçı erməni ordusuna qarşı apardığı müharibə milli şüurun, xalq və ordu birliyinin təcəssümünə çevrildi. İllərlə yaşadığımız ağrıacılar bir andaca sevincə çevrildi. Dövləimizin, ordumuzun bu qalibiyyəti bütün dünyaya nümayiş etdirdi ki, Azərbaycan xalqı qarşısına qoyduğu hər bir vəzifəni yerinə yetirə bilmək qüdrətindədir. Xalqımızın Ali Baş Komandanın ətrafında birləşməsi, öldü var döndü yoxdur şüarı ilə dustaq qalmış torpaqların azadlığı uğrunda canlarından keçmək arzusu həqiqətən də dünyanın duymadığı və sahib olmadığı əzəmətdir. Sözün əsl mənasında dövlət, ordu və xalq arasında sarsılmaz birlik yaradılmışdı [5].

Türkiyənin Azərbaycandakı sabiq səfiri, tanınmış diplomat Hulusi Kılıç kitabında yazırdı: “Hadisələr bir daha sübut etdi ki, bu xalqda nə qədər güclü vətənpərvərlik ruhu, orduya, dövlətə sarsılmaz etimad və sədaqət var. Bu etimad da Azərbaycan Prezidentinə güc verir” [6].

Arxa cəbhənin ön cəbhə ilə əlaqələrinin möhkəmlənməsində, əsgərlərin arxa cəbhədəki vəziyyətdən xəbərdar olmalarında, xalq-ordu birliyinin yaranmasında “Əsgərə məktub!” layihəsi mühüm rol oynadı. Məktub müəllifləri arasında ictimai xadimlər, yazıçılar, şairlər, müğənnilər və başqaları vardı. Bu idi dövlətin, ordunun, xalqın əzəməti, birliyi [7].

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən Müharibəsi hərbi sahədə yenilik kimi bütün dünyada qəbul edilərək etiraf olundu. Qardaş Türkiyənin Milli Müdafiə Naziri Hulusi Akarın söylədikləri də qürur vericidir. ”Həqiqətən də tarixi dəyəri olan, Azərbaycan və türk tarixinə qızıl hərflərlə yazılacaq uğur əldə etmisiniz. 44 günlük əməliyyat bitdi, amma bu haqda hələ azı 44 il danışılacağına əmin olun. Bu əməliyyat bir oyanışdır, biz Azərbaycan Ordusunun gücünü gördük [8].

Vətən müharibəsi Ali Baş Komandanın, Azərbaycan Ordusunun, xalqımızın zəfəri ilə başa çatdı. Bu qələbəni Ali Baş Komandanın qətiyyəti, siyasi iradəsi, ordumuzun şücaəti hesabına qa-

zandıq...Ona görə 44 günlük qəhrəmanlıq savaşımız tarix boyu şanlı qürur mənbəyimiz olaraq qalacaq.

Bu baxımdan Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası etibarlı və mükəmməl informasiya mənbəyi olaraq tanınır. Vətən Müharibəsindən az sonra kitabxana sistemində ilk olaraq Mərkəzi Elmi Kitabxanada Qarabağ müharibəsi qəhrəmanları fondu yaradıldı.

Vətənimizin ərazi bütövlüyü, siyasi müstəqilliyi, milli azadlığı uğrunda canından-qanından keçmiş hər bir vətən oğlunun fədakarlığının unudulmaması, gənc nəsilə kimlərin sələfləri olduqlarını onlara xatırladacaq şərəfli bir tarixin gələcəyə ötürülərək qorunması milli yaddaşımız üçün olduqca önəmlidir.

Qarabağ fondunda Aprel və Tovuz döyüşləri, I və II Qarabağ müharibəsi, zəfərdə payı olan AMEA institutlarının müharibə iştirakçıları və şəhidləri, Qara Heybət helikopter qəzası, 12-14 sentyabr Azərbaycan - Ermənistan şərti sərhəddində baş vermiş hərbi münaqişə, 23 saatlıq Antiterror əməliyyatında şəhid olan qəhrəmanların döyüş fəaliyyətini əks etdirən məlumatlar sənədləşdirilmiş, video materiallar, foto şəkillər slaydlar toplanılmışdır. Bundan başqa Qazilər və Müharibə iştirakçıları haqqında məlumatlar da fondda yer alır [9]. Üçrəngli bayrağın rənginə boyanmış "Zəfər memarları" adlı Azərbaycan Respublikası xəritəsi üzərində 44 günlük müharibənin qələbəsinini bizə yaşadan igid oğullarımızın adları həkk olunmuşdur. Şəhid oğullarımızın oxuduqları şəxsi kitablar isə fondda ayrı bir güşədə sərgilənir. Qəhrəmanlarımıza həsr olunmuş qiymətli kitablar müəllifləri və şəhid ailələri tərəfindən fonda hədiyyə olunmuşdur. Hər ay doğum günü olan şəhidlərimizin şəkillərindən hazırlanmış videoslaydlar infoköşkdə yayımlanır, həm də onlara məxsus məlumatlar xüsusi guşədə sərgilənir.

Qarabağ müharibəsi qəhrəmanları fondunda Qarabağın tarixini, coğrafiyasını, siyasətini və milli-mədəni irsini, həmçinin Birinci və İkinci Qarabağ müharibəsinə dair dövrümüzün bütün materiallarını əhatə edən kitablar və digər sənədlər mühafizə olunur. Bununla da fond Vətənimizin müharibə tarixini canlı olaraq yaşamış igid oğularımızın qəhrəmanlıq tarixini sənədləşdirərək, hər kəsin istifadə edə biləcəyi istinad mənbəyinə çevrilmişdir.

Görülən işlərin bir qismi Facebook səhifəsində yayımlanır. Qəhrəmanlarımızın təbliğ olunması məqsədilə Qarabağ fondunun rəhbəri və əməkdaşlarının birgə səyi nəticəsində CBC FM radiosunda "Vətən uğrunda"adlı veriliş yayımlandı. Qalib oğullarımızın həyat və döyüş yolu, göstərdikləri misilsiz igidlik haqqında söhbətlər azad etdikləri torpaqlarda - Qarabağda yayımlanmaqdadır.

Bununla da fond Vətənimizin müharibə tarixini canlı olaraq yaşamış igid oğularımızın qəhrəmanlıq tarixini sənədləşdirərək, hər kəsin istifadə edə biləcəyi istinad mənbəyinə çevirib. Bütün bunlar dərsliklərin, kütləvi informasiya vasitələrinin və təşkilatların, oxucu kütləsinin zəngin istinad nöqtəsi olaraq, qəhrəmanlıq tariximizin bütün zamanlar üçün sistemli şəkildə düzgün ötürülməsinə və dəyərləndirilməsinə imkan yaradır. Dünyanı heyrətə gətirən qəhrəmanlıq salnaməsini yaddaşlarda qorumaq, gələcəyə ötürmək bizlər üçün həm şərəfli, həm də vətəndaşlıq borcudur. Hər zaman qarşısında təzim edəcəyimiz vətənpərvərlik məktəbidir.

## Ədəbiyyat


1. *Qocayeva A*. Kitabxanalar tarixi yaddaşımız, milli-mənəvi xəzinəmizdir.- 2009.- S.7.
2. *İsmayılov X. İ*. Kitabxana işinin təşkili və idarə edilməsi.- Bakı: Nurlar, 2010.- S.4.
3. Hüseynzadə F. Kitabxanada maarifləndirici tədbirlərin keçirilməsi mənəvi dəyərlərin əsas meyarlarının ortaya qoyulmasında həlledici rola malikdir / Palitra.- 2013.- S.11.
4. *Qocayeva A*. Kitabxanalar tarixi yaddaşımız, milli-mənəvi xəzinəmizdir.- 2009.- S. 7.
5. *İsmayılov X.İ*. Kitabxana işinin təşkili və idarə edilməsi.- Bakı: Nurlar, 2010.- S.4.

6. *Hüseynzadə F*. "Kitabxanada maarifləndirici tədbirlərin keçirilməsi mənəvi dəyərlərin əsas meyarlarının ortaya qoyulmasında həlledici rola malikdir //Palitra.- 2013.- S.11.
7. Kitabxanalar milli mədəniyyətin dirçəliş resursudur.- Bakı, 2011.- S. 378-434.
8. Vətən müharibəsi tarixi. Şəxsiyyət faktoru.- Bakı: Şərq-Qərb, 2021.- S.35.
9. "44 Gün Vətən müharibəsi Hulusi Kılıç informasiya cəbhəsində," 2021.- S.21.
10. Vətən müharibəsinin 44 günlük zəfər salnaməsi.- Bakı: AFPoliqraf, 2021.- S.16.
11. https://www.bizimyol.info/az/news/348875.html.